arash
SERVICE

ARASH SERVICE
EHTİYAT HİSSƏLƏRİ

*9009

Aleksandrit Kristal / Alexandrite Crystal Rod

Aleksandrit kristalı 755 nm lazer sisteminin əsas aktiv komponentidir və lazer enerjisinin yaranmasını təmin edir. Lampalardan aldığı enerjini lazer şüasına çevirərək sabit impulsların formalaşmasına kömək edir. Onun düzgün işləməsi cihazın gücünə və prosedurun keyfiyyətinə birbaşa təsir edir. Zamanla köhnələn və ya zədələnən kristal cihazın performansının azalmasına səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Kristalın dəyişdirilmə müddəti əsasən cihazın istifadə intensivliyindən və kristalın vəziyyətindən asılıdır. Müntəzəm texniki baxış zamanı onun vəziyyəti yoxlanılır və performansında azalma və ya zədələnmə aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.



Aleks başlığı / Cavity Block

Aleks başlığı lazer sisteminin əsas hissələrindən biridir və kristal, lampa kimi vacib komponentlərin düzgün yerləşməsini təmin edir. Bu hissə bütün optik elementləri sabit vəziyyətdə saxlayaraq cihazın stabil işləməsinə və gücünü qorumasına kömək edir. Zədələndikdə və ya deformasiyaya uğradıqda cihazın performansı zəifləyə və lazer şüasının keyfiyyəti aşağı düşə bilər.

Dəyişdirilmə intervalı

Aleks başlığın müəyyən dəyişdirilmə müddəti yoxdur. Müntəzəm texniki baxış zamanı onun vəziyyəti yoxlanılır və deformasiya, zədələnmə və ya komponentlərin düzgün yerləşməsinə mane olan nasazlıq aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur. Adətən 3 lampa dəyişdirildikdənsonra yenilənməsi tövsiyə olunur.

Kapasitor / Capacitor

Kapasitor lazer cihazında elektrik enerjisini toplayaraq impuls zamanı lazımi gücü təmin edən əsas elektron komponentlərdən biridir. O, cihazın stabil işləməsinə və lazer impulslarının düzgün formalaşmasına kömək edir. Vaxt keçdikcə tutumu azalan və ya nasazlaşan kapasitor cihazın performansının zəifləməsinə, enerji çıxışının qeyri-sabit olmasına və texniki nasazlıqlara səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Kapasitorun dəyişdirilmə müddəti cihazın istifadə intensivliyindən və texniki vəziyyətindən asılıdır. Müntəzəm texniki baxış zamanı onun göstəriciləri yoxlanılır və tutumunda azalma, şişmə, sızma və ya digər nasazlıqlar aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.



Hava filtri / Air side filter

Hava filtri cihazın daxili hissələrini toz, çirk və digər hissəciklərdən qoruyaraq soyutma sisteminin səmərəli işləməsini təmin edir. Təmiz hava axını elektron komponentlərin və optik sistemin stabil fəaliyyətinə kömək edir, cihazın etibarlılığını və istifadə müddətini artırır. Çirklənmiş filtr hava dövranını zəiflədərək cihazın həddindən artıq isinməsinə və performansının azalmasına səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Hava filtrinin dəyişdirilmə müddəti cihazın istifadə intensivliyindən və işlədiyi mühitin təmizliyindən asılıdır. Müntəzəm texniki baxış zamanı filtr yoxlanılır və çirkləndiyi, hava keçirmə qabiliyyətinin azaldığı və ya zədələndiyi hallarda təmizlənməsi və ya dəyişdirilməsi tövsiyə olunur.

Su filtrı / Water filter

Su filtri lazer cihazının soyutma sistemində dövr edən suyu çirk, çöküntü və digər hissəciklərdən təmizləyərək sistemin stabil işləməsini təmin edir. Təmiz soyuducu su lazer başlığının, nasosun və digər daxili komponentlərin qorunmasına kömək edir, cihazın performansını və istifadə müddətini artırır. Çirklənmiş və ya tutulmuş filtr soyutma sisteminin səmərəliliyini azalda, cihazın isinməsinə və nasazlıqların yaranmasına səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Su filtrinin adətən ildə 1 dəfə dəyişdirilməsi mütləqdir. Müntəzəm texniki baxış zamanı filtrin vəziyyəti yoxlanılır və çirkləndiyi, tutulduğu və ya su axınına mane olduğu hallarda dəyişdirilməsi tövsiyə olunur.

Şüa qapağı / Beam shutter

Şüa qapağı lazer cihazında şüanın açılıb-bağlanmasını idarə edən təhlükəsizlik və idarəetmə komponentidir. O, lazer impulsunun yalnız prosedur zamanı ötürülməsini təmin edərək cihazın təhlükəsiz və dəqiq işləməsinə kömək edir. Şüa qapağının düzgün işləməsi cihazın təhlükəsiz, stabil və dəqiq işləməsini təmin edir. Nasazlıq yarandıqda şüanın ötürülməsində gecikmələr və ya idarəetmə problemləri müşahidə oluna bilər.

Dəyişdirilmə intervalı

Şüa qapağının dəyişdirilmə müddəti cihazın istifadə intensivliyindən və texniki vəziyyətindən asılıdır. Müntəzəm texniki baxış zamanı onun işləmə dəqiqliyi yoxlanılır və açılıb-bağlanma mexanizmində nasazlıq, gecikmə və ya mexaniki zədələnmə aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

HD detektor güzgüsü / Head dedector

HD detektor lazer başlığında lazer enerjisinin düzgün ötürülməsini və cihazın təhlükəsiz işləməsini nəzarətdə saxlayan vacib komponentdir. O, lazer impulslarının düzgün formalaşmasına və sistemin stabil işləməsinə kömək edir. Detektorda yaranan nasazlıq enerji çıxışının qeyri-sabit olmasına, lazer şüasının düzgün idarə olunmamasına və cihazın performansının azalmasına səbəb ola bilər.

Dəyişdirilmə intervalı

HD detektorun dəyişdirilmə müddəti cihazın istifadə intensivliyindən və texniki vəziyyətindən asılıdır. Müntəzəm texniki baxış zamanı onun işləmə göstəriciləri yoxlanılır və ölçmə dəqiqliyində azalma, nasazlıq və ya zədələnmə aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Sürgülü linza / Slider lens

Sürgülü linza (Slider) lazer şüasının düzgün ölçüdə və dəqiq şəkildə dəriyə çatdırılmasını təmin edir. Müxtəlif spot ölçülərinin seçilməsinə kömək edərək prosedurun daha dəqiq və effektiv aparılmasına şərait yaradır. Linza çirkləndikdə, cızıldıqda və ya zədələndikdə lazer şüasının keyfiyyəti və cihazın işləmə performansı zəifləyə bilər.

Dəyişdirilmə intervalı

Sürgülü linzanın dəyişdirilmə müddəti cihazın istifadə intensivliyindən və texniki vəziyyətindən asılıdır. Müntəzəmtexniki baxış zamanı linzanın vəziyyəti yoxlanılır. Cızılma, çatlama, zədələnmə və ya lazer şüasının keyfiyyətində azalma müşahidə edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Fokus linza / Focus lens

Fokus linza lazer şüasını düzgün nöqtəyə yönəldərək onun dəqiq və bərabər şəkildə dəriyə çatmasını təmin edir. Bu, prosedurun effektivliyinə və nəticənin keyfiyyətinə birbaşa təsir göstərir. Linzanın çirklənməsi, cızılması və ya zədələnməsi lazer şüasının keyfiyyətini azalda və cihazın performansına mənfi təsir göstərə bilər.

Dəyişdirilmə intervalı

Fokus linzanın dəyişdirilmə müddəti cihazın istifadə intensivliyindən və texniki vəziyyətindən asılıdır. Müntəzəm texniki baxış zamanı linzanın vəziyyəti yoxlanılır. Cızılma, çatlama, çirklənmə və ya lazer şüasının keyfiyyətində azalma müşahidə edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Orta linza / Intermediate lens

Orta linza lazer şüasının cihaz daxilində düzgün istiqamətdə və optimal formada ötürülməsini təmin edir. O, şüanın keyfiyyətini qoruyaraq enerjinin itkisiz şəkildə növbəti optik hissəyə çatmasına kömək edir. Linzanın çirklənməsi və ya zədələnməsi lazerin gücünün azalmasına və prosedurun keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Orta linzanın dəyişdirilmə müddəti cihazın istifadə intensivliyindən və texniki vəziyyətindən asılıdır. Müntəzəm texniki baxış zamanı linzanın vəziyyəti yoxlanılır. Cızılma, çatlama, yanıq izi və ya lazer performansında azalma müşahidə edildikdə dəyişdirilməsi tövsiyə olunur.

1-ci və 2-ci güzgülər / First and second mirrors

1-ci və 2-ci güzgülər lazer şüasını cihaz daxilində düzgün istiqamətləndirərək onu növbəti optik hissələrə ötürür. Güzgülərin təmiz və dəqiq vəziyyətdə olması enerji itkisinin qarşısını alır, lazer şüasının sabitliyini qoruyur və prosedurun keyfiyyətini artırır.

Dəyişdirilmə intervalı

Güzgülərin sabit dəyişdirilmə müddəti yoxdur. Müntəzəm texniki baxış zamanı onların səthi yoxlanılır. Cızıq, yanıq izi, örtük zədələnməsi və ya enerji ötürülməsində azalma müşahidə edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Lampa / Flash Lamp

Lampa lazer sistemində işıq enerjisini yaradan əsas komponentlərdən biridir. O, kristal çubuğu işıqlandıraraq lazer şüasının yaranmasına şərait yaradır. Lampanın gücü azaldıqda və ya ömrü başa çatdıqda cihazın enerji çıxışı zəifləyir və prosedurların effektivliyi aşağı düşə bilər.

Dəyişdirilmə intervalı

Lampa istehsalçı tərəfindən müəyyən edilmiş impuls (shot) resursuna malikdir və istifadə intensivliyindən asılı olaraq dəyişdirilir. Müntəzəm texniki baxış zamanı lampanın vəziyyəti və enerji çıxışı yoxlanılır. Resursu tamamladıqda, enerji səviyyəsində azalma və ya nasazlıq müşahidə edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Kollektor / Manifold

Kollektor lazer sisteminin soyutma dövriyyəsini idarə edən hissədir. O, soyuducu suyun lazımi komponentlərə düzgün istiqamətdə paylanmasını təmin edir və sistemin sabit temperaturda işləməsinə kömək edir. Kollektorda yaranan sızma və ya tutulma soyutma sisteminin işini zəiflədə və cihazın performansına mənfi təsir göstərə bilər. Ən əsası isə, digər elektron detallara su sızması ilə zərər verə bilər.

Dəyişdirilmə intervalı

Kollektor üçün sabit dəyişdirilmə müddəti yoxdur. Müntəzəm texniki baxış zamanı sızma, korroziya, çat və ya axında problem olub-olmaması yoxlanılır. Zədələnmə və ya soyutma sisteminin işinə mane olan nasazlıq aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Su nasosu / Water pump

Su nasosu lazer cihazının soyutma sisteminin əsas hissələrindən biridir. O, soyuducu mayeni cihaz daxilində dövr etdirərək lazer lampası, kristal və digər komponentlərin təhlükəsiz temperaturda işləməsini təmin edir. Nasosun zəifləməsi və ya dayanması soyutmanın pozulmasına, cihazın qızmasına və performansın azalmasına səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Su nasosu üçün sabit dəyişdirilmə müddəti yoxdur. Müntəzəm texniki baxış zamanı su axını, təzyiqi və nasosun işləməsi yoxlanılır.
Səs-küy, zəif su dövriyyəsi, sızma və ya nasazlıq aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Su nasosu pəri / Water Pump Head Impeller

Su nasosu pəri soyutma sistemində distillə olunmuş suyun dövranını təmin edən əsas komponentdir. O, lazer sisteminin daxili hissələrinin sabit temperaturda işləməsinə kömək edir və həddindən artıq qızmanın qarşısını alır. Pərin aşınması, qırılması və ya deformasiyası su axınının zəifləməsinə, soyutmanın səmərəsinin azalmasına və cihazın temperatur xətası verməsinə səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Müntəzəm texniki baxış zamanı su dövranı, nasosun işləmə vəziyyəti və pərin mexaniki bütövlüyü yoxlanılır. Aşınma, qırılma, deformasiyalar və ya su axınının zəifləməsi aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Cpu plata / CPU board

CPU plata lazer cihazının əsas idarəetmə lövhəsidir. Cihazın bütün funksiyalarını idarə edir, sensorlardan gələn məlumatları emal edir və lazer impulsu, soyutma sistemi, əl aləti və digər komponentlərin birgə işləməsini təmin edir. CPU platada yaranan nasazlıq cihazın qeyri-sabit işləməsinə və ya ümumiyyətlə işə düşməməsinə səbəb ola bilər.

Dəyişdirilmə intervalı

CPU plata üçün dəqiq dəyişdirilmə müddəti yoxdur. Müntəzəm texniki baxış zamanı elektron komponentlərin və platanın işləmə vəziyyəti yoxlanılır. Elektron nasazlıq, yanma, fiziki zədələnmə və ya təmir edilə bilməyən problemlər aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

IGBT plata / IGBT board

IGBT plata lazer sistemində yüksək gərginliyin idarə olunmasını təmin edən əsas elektron hissələrdən biridir. O, lampaya verilən enerjini dəqiq tənzimləyərək lazer impulslarının sabit və təhlükəsiz yaranmasına kömək edir. Düzgün işləməsi cihazın performansı və etibarlılığı üçün vacibdir.

Dəyişdirilmə intervalı

IGBT platanın dəqiq dəyişdirilmə müddəti yoxdur. Texniki baxış zamanı platanın vəziyyəti və işləmə göstəriciləri yoxlanılır. Nasazlıq, enerji ötürülməsində problem və ya performans azalması müşahidə edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Əl aləti / Handpiece

Əl aləti lazer şüasını prosedur sahəsinə dəqiq yönləndirən və tətbiq edən əsas işçi detaldır. Onun korpusu və başlıq hissəsi lazer şüasının düzgün məsafədən və düzgün istiqamətdə ötürülməsini təmin edir. Uzunmüddətli istifadə nəticəsində başlıq hissəsində ərimə, deformasiya və ya mexaniki aşınma yarana bilər. Bu isə prosedur zamanı məsafənin düzgün saxlanılmamasına, şüanın istiqamətinin pozulmasına və cihazın ümumi performansının azalmasına səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Əl alətinin dəyişdirilmə müddəti cihazın istifadə intensivliyindən və texniki vəziyyətindən asılıdır. Müntəzəm texniki baxış zamanı onun korpusu, optik hissələri və mexaniki komponentləri yoxlanılır. Zədələnmə, aşınma və ya lazer şüasının ötürülməsində problem aşkar edildikdə təmir və ya dəyişdirilməsi tövsiyə olunur.

Əl alətinin elektron idarəetmə platası / Handpiece Control PCB

Əl alətinin daxilində yerləşən elektron idarəetmə moduludur. DCD sistemi, spot ölçüsü seçimi və sensorlardan gələn siqnalların emalını idarə edərək əl alətinin düzgün və stabil işləməsini təmin edir. Platanın nasazlığı DCD funksiyasının işləməməsinə, spot ölçüsünün düzgün oxunmamasına və ya əl aləti ilə cihaz arasında rabitənin pozulmasına səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Müntəzəm texniki baxış zamanı elektron əlaqələr və platanın işləmə vəziyyəti yoxlanılır. Elektron nasazlıq, siqnal ötürülməsində problem və ya fiziki zədələnmə aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Əl aləti düyməsi / Handpiece switch trigger button

Əl aləti düyməsi operatorun lazer impulsunu verməsini təmin edən idarəetmə düyməsidir. Düyməyə basıldıqda siqnal CPU platasına ötürülür və cihaz lazer impulsunu işə salır. Düymənin nasaz olması impulsun gecikməsinə, qeyri-sabit işləməsinə və ya ümumiyyətlə verilməməsinə səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Əl aləti düyməsi üçün xüsusi dəyişdirilmə müddəti yoxdur.
Müntəzəm texniki baxış zamanı düymənin həssaslığı və siqnal ötürməsi yoxlanılır. Basdıqda gecikmə, işləməmə və ya qeyri-sabitlik müşahidə edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Əl aləti rezin örtüyü / Handpiece rubber grip

Rezin örtüyü başlığı əl alətinə möhkəmlətmək və düzgün saxlamaq üçün istifadə olunur.Vaxt keçdikcə rezin örtük köhnələ, elastikliyini itirə və ya zədələnə bilər.

Dəyişdirilmə intervalı

Əl aləti rezin örtüyü üçün sabit dəyişdirilmə müddəti yoxdur. Müntəzəm texniki baxış zamanı onun vəziyyəti yoxlanılır. Çatlama, cırılma, deformasiyaya uğrama və ya sürüşməyə səbəb olan aşınma müşahidə edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Ayaq pedalı / Foot Pedal

Operator prosedur zamanı lazer şüasını ayaq pedalı vasitəsilə işə salır və dayandırır. Davamlı istifadə nəticəsində kabeldə qırılma, kontaktlarda aşınma və ya pedal mexanizmində nasazlıq yarana bilər ki, bu da impulsun gecikməsi, qeyri-sabit işləməsi və ya ümumiyyətlə aktivləşməməsinə səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Müntəzəm texniki baxış zamanı kabelin bütövlüyü, kontaktların vəziyyəti və pedalın işləmə funksiyası yoxlanılır. Elektrik və ya mexaniki nasazlıq, kabel zədələnməsi və ya impulsun qeyri-sabit aktivləşməsi aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Qoruyucu şüşə / Protective lens

Qoruyucu şüşə lazer şüasının çıxdığı hissədə yerləşir və daxili optik komponentləri toz, tüstü və digər çirklənmədən qoruyur. Lazer şüasının maneəsiz keçməsini təmin edərək enerjinin və prosedurun keyfiyyətinin sabit qalmasına kömək edir. Çirklənmiş və ya zədələnmiş qoruyucu şüşə lazer enerjisinin azalmasına və optik hissələrin zədələnmə riskinin artmasına səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Qoruyucu şüşənin dəyişdirilmə müddəti onun vəziyyətindən və istifadə intensivliyindən asılıdır. Müntəzəm texniki baxış zamanı şüşədə cızıq, çat, yanıq izi və ya çirklənmə aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

DCD klapan / DCD Valve

DCD klapan lazer impulsundan əvvəl dəriyə soyuducu sprey (freon) püskürtməsini idarə edir. Bu, dərinin qorunmasına, ağrının azalmasına və prosedurun daha rahat və təhlükəsiz aparılmasına kömək edir. Klapan nasaz olduqda soyuducu sprey düzgün püskürmür və DCD sistemi normal işləmir.

Dəyişdirilmə intervalı

DCD klapan üçün sabit dəyişdirilmə müddəti yoxdur.
Müntəzəm texniki baxış zamanı klapanın işləməsi, açılıb-bağlanması və soyuducu spreyin düzgün püskürməsi yoxlanılır. Sızma, tutulma və ya püskürtmədə nasazlıq aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

AC qidalanma platası / AC PBC Board

AC qidalanma platası lazer cihazına daxil olan elektrik enerjisini idarə edən əsas elektron lövhələrdən biridir. O, müxtəlif komponentlərə lazımi gərginliyin təhlükəsiz və sabit şəkildə ötürülməsini təmin edir. Bu platada yaranan nasazlıq cihazın işə düşməməsinə, enerji kəsilmələrinə və ya qeyri-sabit işləməsinə səbəb ola bilər.

Dəyişdirilmə intervalı

AC qidalanma platası üçün sabit dəyişdirilmə müddəti yoxdur. Müntəzəm texniki baxış zamanı platanın işləmə vəziyyəti və elektron komponentləri yoxlanılır. Yanma, qısaqapanma, enerji ötürülməsində nasazlıq və ya təmir edilə bilməyən zədələnmə aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Su axın sensoru / Flow sensor

Axın sensoru soyutma sistemində suyun dövriyyəsini izləyən təhlükəsizlik komponentidir. O, soyuducu suyun kifayət qədər axdığını yoxlayır və axın zəiflədikdə və ya dayandıqda cihazı xəbərdar edir. Bu, lazer sisteminin həddindən artıq qızmasının qarşısını almağa kömək edir.

Dəyişdirilmə intervalı

Axın sensoru üçün sabit dəyişdirilmə müddəti yoxdur. Müntəzəm texniki baxış zamanı sensorun düzgün işləməsi və su axınını dəqiq aşkar etməsi yoxlanılır. Yanlış siqnal verməsi, axını aşkar etməməsi və ya nasazlıq müşahidə edildikdə dəyişdirilməsi tövsiyə olunur.

DCD kabeli / DCD Cable

DCD kabeli əl aləti ilə cihaz arasında elektrik siqnallarını və DCD soyutma sisteminin idarəetmə əlaqəsini təmin edir. Bu kabel sayəsində soyuducu sprey sistemi düzgün işləyir və prosedur zamanı dəri lazer impulsundan əvvəl effektiv şəkildə soyudulur. Kabeldə yaranan zədələnmə və ya qırılma DCD sisteminin nasaz işləməsinə və ya ümumiyyətlə fəaliyyət göstərməməsinə səbəb ola bilər.

Dəyişdirilmə intervalı

DCD kabeli üçün sabit dəyişdirilmə müddəti yoxdur. Müntəzəm texniki baxış zamanı kabelin bütövlüyü, birləşmələri və siqnal ötürməsi yoxlanılır.
Qırılma, əyilmə nəticəsində daxili zədələnmə, kontakt problemi və ya siqnal ötürülməsində nasazlıq aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

HVPS / High Voltage Power Supply

Yüksək gərginlik enerji bloku (HVPS) lazer sistemində lampaların və optik modulun işləməsi üçün tələb olunan yüksək gərginliyi yaradan əsas enerji təchizatı blokudur. Stabil və dəqiq gərginlik təmin etməklə lazer impulslarının gücünü və sabitliyini qoruyur. HVPS blokunda yaranan nasazlıqlar cihazın enerji verməməsinə, impuls gücünün azalmasına və ya ümumiyyətlə işləməməsinə səbəb ola bilər.

Dəyişdirilmə intervalı

HVPS planlı şəkildə dəyişdirilmir. Müntəzəm texniki baxış zamanı çıxış gərginliyi və ümumi işləmə vəziyyəti yoxlanılır. Enerji təchizatında nasazlıq, qeyri-sabit gərginlik və ya komponent sıradançıxması aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

HV boşaltma platası / HV Dump PCB

HV boşaltma platası lazer cihazının yüksək gərginlik dövrəsində qalan enerjinin təhlükəsiz şəkildə boşaldılmasını təmin edən elektron idarəetmə platasıdır. Bu plata prosedur başa çatdıqdan və ya cihaz söndürüldükdə yüksək gərginliyin təhlükəsiz şəkildə boşaldılmasına nəzarət edir, elektron komponentləri qoruyur və cihazın təhlükəsiz istismarını təmin edir.

Dəyişdirilmə intervalı

HV boşaltma platası yalnız elektron komponentlərin nasazlığı, yüksək gərginliyin düzgün boşaldılmaması və ya performans itkisi aşkar edildikdə dəyişdirilir. Müntəzəm texniki baxış zamanı platanın işləmə vəziyyəti yoxlanılmalı, nasazlıq müəyyən edildikdə yenisi ilə əvəz olunması tövsiyə olunur.

UPS / UPS

10 kVA Online UPS lazer cihazını elektrik şəbəkəsində baş verən gərginlik dəyişiklikləri, ani enerji kəsintiləri və impulslardan qoruyan fasiləsiz enerji mənbəyidir. Online (Double Conversion) texnologiyası sayəsində cihazı daim stabil və təmiz enerji ilə təmin edir, yüksək gərginlikli komponentlərin və elektron plataların zədələnmə riskini minimuma endirir. Bu sistem həm prosedurun yarımçıq qalmasının qarşısını alır, həm də cihazın uzunömürlü və təhlükəsiz işləməsinə kömək edir.

Dəyişdirilmə intervalı

UPS-in dəyişdirilmə müddəti əsasən istifadə intensivliyindən və daxili batareyaların vəziyyətindən asılıdır. Müntəzəm texniki baxış zamanı batareya tutumu, çıxış gərginliyi və ümumi işləmə göstəriciləri yoxlanılmalıdır. Batareya tutumu azaldıqda, xəbərdarlıq siqnalları yarandıqda və ya UPS stabil enerji təmin etmədikdə batareyaların və ya zərurət olduqda UPS-in dəyişdirilməsi tövsiyə olunur.

Hədəfli şüa ötürücü / Aiming Beam

Hədəfli şüa ötürücü prosedur zamanı görünən bələdçi şüanı yaradır və lazer impulsununtətbiq olunacağı nöqtəni dəqiq göstərir. Bu modul operatora işləmə sahəsini dəqiq hədəfləməyə kömək edir və prosedurun təhlükəsizliyini artırır. Modulun nasazlığı nişanlama şüasının zəifləməsinə, istiqamətinin pozulmasına və ya tamamilə işləməməsinə səbəb ola bilər.

Dəyişdirilmə intervalı

Müntəzəm texniki baxış zamanı nişanlama şüasının gücü və düzgün hizalanması yoxlanılır. Şüanın zəifləməsi, hizalanmanın pozulması və ya modulun sıradan çıxması aşkar edildikdə dəyişdirilməsi tövsiyə olunur.

Şüşə tutacağı / Window Holder

Şüşə tutacağı qoruyucu şüşəni əl alətində sabit və düzgün mövqedə saxlayan mexaniki komponentdir. Lazer şüasının optik sistem boyunca maneəsiz ötürülməsini təmin edir və qoruyucu şüşənin prosedur zamanı yerindən tərpənməsinin qarşısını alır. Onun düzgün işləməsi lazer enerjisinin dəqiq ötürülməsi və prosedurun təhlükəsizliyi üçün vacibdir.

Dəyişdirilmə intervalı

Şüşə tutacağı yalnız zədələnmə, çatlama, deformasiya və ya şüşəni etibarlı şəkildə sabitləyə bilmədiyi hallarda dəyişdirilir. Müntəzəm texniki baxış zamanı vəziyyəti yoxlanılmalı və aşınma və ya mexaniki nasazlıq aşkar edildikdə yenisi ilə əvəz olunması tövsiyə olunur.

Şüşə başlıq / Distance gauge

Məsafə ölçü başlıqları əl alətinin dəri ilə düzgün məsafədə saxlanmasını təmin edən aksesuarlardır. 12 mm, 15 mm, 18 mm, 20 mm, 22 mm və 24 mm ölçüləri müxtəlif spot ölçülərinə uyğun istifadə olunur. Dərinin səthinə olan məsafəni standartlaşdıraraq lazer enerjisinin düzgün fokuslanmasına, prosedurun təhlükəsiz və effektiv aparılmasına kömək edir.

Dəyişdirilmə intervalı

Məsafə ölçü başlıqları yalnız çatlama, deformasiya, qırılma və ya optik səthdə aşınma müşahidə edildikdə dəyişdirilir. Belə hallar aşkar edildikdə yenisi ilə əvəz olunması tövsiyə edilir.

Radiator / Heat exchage radiator

Radiator lazer cihazının soyutma sisteminin əsas komponentlərindən biridir. Soyuducu mayedə yaranan istiliyi ətraf mühitə ötürərək sistemin optimal temperaturda işləməsini təmin edir. Radiatorun səmərəli fəaliyyəti lazer lampasının, optik komponentlərin və digər daxili hissələrin həddindən artıq qızmasının qarşısını alır, cihazın sabit və dəqiq işləməsinə kömək edir.

Dəyişdirilmə intervalı

Radiator yalnız sızma, korroziya, mexaniki zədələnmə, daxili tıxanma və ya istilik mübadiləsinin zəifləməsi hallarında dəyişdirilir. Xüsusilə yay aylarında müntəzəm texniki baxış zamanı radiatorun vəziyyəti və soyutma performansı yoxlanılmalı, nasazlıq aşkar edildikdə yenisi ilə əvəz olunmalıdır.

Radiatorun soyuducusu / Heat exchange radiator fan

Radiator fanı radiator üzərindən hava axını yaradaraq soyuducu mayedə toplanan istiliyin ətraf mühitə ötürülməsini sürətləndirir. Bu, soyutma sisteminin səmərəli işləməsini təmin edir, lazer lampasının və digər daxili komponentlərin həddindən artıq qızmasının qarşısını alır.

Dəyişdirilmə intervalı

Radiator fanı yalnız fırlanma sürətinin azalması, səs-küy, balans pozuntusu, mühərrik nasazlığı və ya hava axınının zəifləməsi hallarında dəyişdirilir. Müntəzəm texniki baxış zamanı fanın işləmə vəziyyəti yoxlanılmalı, performans itkisi və ya mexaniki nasazlıq aşkar edildikdə yenisi ilə əvəz olunur

Ekran modulu / Display module

Ekran modulu cihazın idarəetmə interfeysini təmin edən əsas elektron komponentdir. Sensor ekran vasitəsilə parametrlərin tənzimlənməsi, sistem məlumatlarının izlənməsi, nasazlıq bildirişlərinin göstərilməsi və prosedurun idarə olunmasını təmin edir. Ekran modulu CPU idarəetmə platası ilə birlikdə işləyərək istifadəçi əmrlərinin cihaz tərəfindən düzgün icra olunmasına kömək edir.

Dəyişdirilmə intervalı

Ekran modulu yalnız sensor funksiyasının pozulması, görüntü problemləri, elektron nasazlıq və ya CPU ilə əlaqənin itməsi hallarında dəyişdirilir. Müntəzəm texniki baxış zamanı modulun işləmə vəziyyətinin yoxlanılması, nasazlıq aşkar edildikdə yenisi ilə əvəz olunması tövsiyə olunur.